

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 120 (23.282)

*3 iyul 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsi – müasir Sədərək

### *Heydərabad qəsəbəsində yeni yaşayış binası istifadəyə verilmişdir*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sədərək rayonuna səfəri zamanı demişdir: ***“Biz güclü dövlət qururuq. Bu dövlətin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Onun zəhməti, yorulmaz fəaliyyəti, müdrik siyasəti nəticəsində bu gün Azərbaycan böyük zirvələri fəth etməyə nail olub”.***

Sədərək rayonunun yaranması və inkişafı da ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ölkəmizə birinci rəhbərliyi dövründən başlayaraq sərhəd yaşayış məntəqəsinin inkişafını diqqətdə saxlamış, 1990-1993-cü illərdə isə Sədərək işğaldan qorunmuşdur. Milli Qurtuluşdan başlanan yol müstəqillik illərində rayonu müasir yaşayış məntəqəsinə çevirmişdir. Bu gün Heydər Əliyev siyasi xəttinə sədaqət Sədərək rayonunda davamlı inkişafı təmin etmiş, Heydərabad qəsəbəsində və kəndlərdə quruculuq işlərinin miqyası genişlənmiş, məskunlaşma artmışdır.



İyulun 2-də – ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 illiyi ərəfəsində Sədərək rayonunun Heydərabad qəsəbəsində yeni yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov muxtar respublikada əhalinin rahat yaşayışı, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan işlərin tərkib hissəsi olaraq Heydərabad qəsəbəsində yeni yaşayış binasının inşa olunduğunu bildirmiş, tikinti işlərinin yüksək keyfiyyətlə başa çatdırıldığını qeyd etmişdir. Rayonda aparılan quruculuq işləri haqqında məlumat verən Hicran Rüstəmov bundan sonra da tapşırıqların icrası üçün səylə çalışacaqlarını qeyd etmiş, inşaatçılar adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək rayonunda yeni yaşayış binasının istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmiş, binanın tikintisində əməyi olanlara təşəkkürünü bildirərək demişdir: İyulun 14-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50 ili tamam olur. Ulu öndərin ölkəmizə birinci rəhbərliyi dövrünün nəticəsi olaraq Azərbaycan müstəqil dövlətə çevrildi. Müstəqilliyin ilk illərində Azərbaycanın uzaqlaşması faciələrə səbəb oldu. Ulu öndərin xalqın tələbi ilə yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra isə bütün sahələrdə inkişaf təmin edildi, müstəqilliyimiz qorundu, Azərbaycan güclü və qüdrətli dövlətə çevrildi. Bu gün ölkə Prezidenti ümummilli liderimizin siyasi xəttini uğurla davam etdirir. Nəticə isə ondan ibarətdir ki, işğalçı ölkə ilə sərhəddə yerləşən Sədərək rayonunda hər cür şəraiti olan 48 mənzilli yeni yaşayış binası istifadəyə verilir. Bu, ölkəmizin inkişafının, dövlətin vətəndaşlara qayğısının, ən əsası isə dövlət-xalq birliyinin göstəricisidir.

Qeyd olunmuşdur ki, yeni yaşayış binasının ilk sakinləri də dövlət qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş vətəndaşlardır. Həmin şəxslərin mənzillərlə təmin olunması həm də dövlətin bu kateqoriyadan olan insanlara qayğısının təzahürüdür. Çünki ölkəmizdə sosial sahənin inkişafı daim diqqətdə saxlanılır. Azərbaycanın azadlığı və suverenliyi uğrunda canlarını qurban vermiş, sağlamlığını itirmiş şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Dövlətçilik yolunda öz xidməti borclarını layiqincə yerinə yetirmiş şəxslərə göstərilən qayğı, eyni zamanda digər vətəndaşlar üçün də nümunədir.

Ali Məclisin Sədri demişdir: Ötən dövrdə həyata keçirilən tədbirlər rayonun simasını tamamilə dəyişmiş, Sədərək müasir və abad yaşayış məntəqəsinə çevrilmişdir. Sədərək rayonunun inkişafına, abadlaşmasına bundan sonra da diqqət yetirilməlidir. Yaşayış binasının tikilməsində məqsəd də ondan ibarət idi ki, həm ailələr rahat yaşasın, həm də Sədərəyin bərəkətli torpaqları qorunub gələcək nəsillərə çatdırılsın.

Ali Məclisin Sədri yaşayış binasının istifadəyə verilməsi münasibətilə bir daha sakinləri təbrik etmiş, onlara yeni mənzillərində rahat və firavan həyat arzulamışdır.

Heydərabad qəsəbə sakini, ziyalı Sultan Rzayev minnətdarlıq edərək demişdir: “Sədərək son illər kompleks inkişaf edib. Rayonda icbari tibbi sığortanın tətbiqi sakinlərin sağlamlığının daha etibarlı qorunmasına şərait yaradıb. Mədəniyyət Sarayında insanların asudə vaxtları səmərəli təşkil olunur. Bu gün yeni yaşayış binasının istifadəyə verilməsi isə tarixi hadisədir. Çünki bina ulu öndərimizin Azərbaycanda rəhbərliyə gəlişinin 50-ci ildönümü ərəfəsində istifadəyə verilir. Sakinlər daim bu günü xatırlayacaqlar. Heydərabad qəsəbəsi ulu öndərin rəhbərliyi ilə yaradılmışdır. İşğalçı ölkənin ötən əsrin 90-cı illərində Sədərəyə hücumu zamanı dağılan evlər yenidən qurulmuş, yeni binalar tikilmişdir. Sərhəd bölgəsi Sədərəkdə 48 mənzilli yaşayış binasının tikilməsi düşmənə gözdağı, bizə sevincdir. Bu, muxtar respublikada ulu öndərin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir:

Ulu öndər yolu haqqın yoludur,
Xalqın istəyidir, azadlığın yoludur,
Bu yol sülhün, azadlığın yoludur,
Neçə kənd əməyi, şəhər əməyi,
Bu millət unutmaz Heydər əməyin.

Qanımız bayrağı göyə qaldırdı,
Vətənin yolunda çıraq yandırdı.
Neçə kənd saldırdı, şəhər saldırdı,
Neçə kənd əməyi, şəhər əməyi,
Bu millət unutmaz Heydər əməyin.

Sədərəklilər bundan sonra da ulu öndərin yolu ilə gedəcək, rayonumuz inkişaf edəcək, qəsəbəmiz şəhərə çevriləcəkdir”.

Sonra binaya baxış olmuşdur. Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan bina 48 mənzillidir. Mənzillərdən 24-ü üçotaqlı, 24-ü isə ikiotaqlıdır. Üçotaqlı mənzillərin ümumi sahəsi 86 və 97, ikiotaqlı mənzillərin ümumi sahəsi isə 63 və 75 kvadratmetrdir. Fərdi istilik sistemi ilə qızdırılacaq mənzillərdə müasir kommunal məişət şəraiti yaradılmış, mərkəzləşdirilmiş antena sistemi və 2 lift quraşdırılmışdır.

Binanın həyətində abadlıq işləri görülmüş, istirahət guşəsi yaradılmış, müasir işıqlandırma və suvarma sistemləri qurulmuşdur.

## Sosial himayəyə ehtiyacı olanlara mənzillər təqdim olunub





İyulun 2-də Sədərək rayonunda 1 şəhid ailəsinə, sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillər təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxslərin və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzindədir. 2019-cu ilin ötən dövründə müvafiq kateqoriyalı 363 nəfərin bərpa mərkəzlərində müalicələri təşkil edilmiş, 150 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilmiş, 8 ailəyə mənzil, 8 nəfərə minik avtomobili təqdim olunmuşdur. Sərhəd yaşayış məntəqəsi olan Sədərəkdə müvafiq kateqoriyadan olan insanlara yeni mənzillərin verilməsi də göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mənzillə təmin olunanları təbrik etmiş, onlara rahat və firavan həyat arzulamış, mənzillərin orderlərini təqdim etmişdir.

Mənzillə təmin olunan şəhid anası Dilbər Hüseynova, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın

*Ardı 2-ci səhifədə*





aradan qaldırılmasında iştirak edən Qəzənfər Həmzəyev, Azərbaycan Vətən Müharibəsi veteranları Rəhim Salmanov və Ramazan Adnayev göstərilən qayğıya görə müharibə veteranları və şəhid ailələri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

Hər biri 3 otaqdan ibarət olan mənzillər tam təmir olunmuş, istilik sistemi quraşdırılmışdır.

Azərbaycan Vətən Müharibəsi veteranları Ramazan Adnayevin və Rəhim Salmanovun ailə üzvləri Mahirə Adnayeva və Güllü Salmanova minnətdarlıq etmişlər. Mahirə Adnayeva demişdir: "Dünyanın heç bir ölkəsində müharibə veteranlarına, şəhid ailələrinə Azərbaycanda olduğu qədər qayğı göstərilmir. Həyat yoldaşım Ramazan Adnayevə bir neçə il bundan əvvəl avtomobil təqdim olunub. Bu gün isə mənzil sahibi olduq. Dövlətin qayğısı bizi daha da ruhlandırır. Bundan sonra da dövlətimizin inkişafı və tərəqqisi yolunda səylə çalışacağıq".



## Dövlət qurumları üçün müasir iş şəraiti yaradılıb





Yeni istifadəyə verilən binada Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Heydərabad bələdiyyəsi və Sədərək Rayon Gigiyena və Epidemiologiya Mərkəzi üçün iş otaqları ayrılmış, xidmət mərkəzi fəaliyyətə başlamışdır.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət qurumları və xidmət mərkəzi üçün yaradılan şəraitlə tanış olmuşdur.



Məlumat verilmişdir ki, Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə üçün 4 iş otağı ayrılmış, kitabxana və iclas zalı istifadəyə verilmişdir. Minə yaxın bədii ədəbiyyatla təmin olunmuş kitabxanada oxunması zəruri olan kitablardan ibarət guşə də yaradılmışdır.

Sədərək Rayon Gigiyena və Epidemiologiya Mərkəzi 5 otaq, bakterioloji laboratoriya və anbardan ibarətdir. Mərkəz lazımi avadanlıqlarla təmin olunmuş, fəaliyyətin təşkili üçün hərtərəfli şərait yaradılmışdır.

Kollektiv adından minnətdarlıq edən Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşı Yusif Zeynalov əvvəllər lazımi şəraiti olmayan binada fəaliyyət göstərdiklərini qeyd etmiş, yaradılan şəraitin məsuliyyətlərini daha da artırdığını bildirmişdir.



Ali Məclisin Sədri torpaqlardan səmərəli istifadə olunması, sərhəd bölgəsində gigiyena və epidemioloji tədbirlərin, xüsusilə dezinfeksiya işlərinin diqqətdə saxlanılması barədə tapşırıqlar vermişdir.

Xidmət mərkəzində ərzaq mağazası, bərbərxana və gözəllik salonu, pinəçi dükanı, dərzi fəaliyyət göstərəcəkdir. Bütün xidmət sahələri lazımi avadanlıqlarla təmin edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Sədərək rayonunda Su Monitorinq Laboratoriyası istifadəyə verilmişdir

İyulun 2-də Sədərək rayonunun Heydərabad qəsəbəsində Su Monitorinq Laboratoriyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Mais Əliyev çıxış edərək demişdir ki, muxtar respublikada ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu sahədə dövlət proqramları qəbul edilərək icra olunur. Son illər ətraf mühitin mühafizəsi sahəsində görülən işlər muxtar respublika ərazisində əlverişli ekoloji şəraitin qorunub saxlanılmasına zəmin yaratmışdır. Xüsusilə yaşıllıqların artırılması, flora və faunanın mühafizəsi sahəsində

*Ardı 3-cü səhifədə*



görülən işlər öz nəticəsini vermişdir. Muxtar respublikada əhalinin sağlam ekoloji mühitdə yaşamasına xüsusi diqqət yetirilir. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Sədərək Rayon Su Monitorinq Laboratoriyası yaradılmış, müasir avadanlıqlarla təchiz edilmiş yeni inzibati bina tikilmişdir. Mais Əliyev göstərilən qayğıya görə minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifələrin icrasında səylə çalışacaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək rayonunda ölkə əhəmiyyətli sahənin – Su Monitorinq Laboratoriyasının istifadəyə verildiyini bildirmiş, bu münasibətlə kollektivi təbrik edərək demişdir: Su Monitorinq Laboratoriyasının istifadəyə verilməsi ölkəmiz və muxtar respublikamız üçün əhəmiyyətli və vacibdir. Ona görə ki, muxtar respublika qanunların işləmədiyi işğalçı ölkə ilə sərhəddə yerləşir. İşğalçı ölkədə istismar müddəti başa çatmış Atom Elektrik Stansiyasının fəaliyyət göstərməsi bölgə üçün risk yaradır. Naxçıvan Muxtar Respublikasının sərhədləri daxilində su mühitinə nəzarət olunur, müvafiq təhlükəsizlik tədbirləri görülür. Lakin mənbəyi muxtar respublikada yerləşməyən çayların monitorinqini aparmaq və su mühitini nəzarətdə saxlamaq üçün yeni laboratoriyanın yaradılmasına ehtiyac var idi.

Ali Məclisin Sədri demişdir: Laboratoriyanın yaradılmasında məqsəd muxtar respublikanın su mənbələrinin çirklənməsinin qarşısının alınmasından, eləcə də sularda yaşayan canlıları qorumaqdan ibarətdir. Müasir laboratoriyanın qurulması muxtar respublikanın sərhədləri daxilində tədbirləri vaxtında görməyə və qərar qəbul etməyə imkan verəcəkdir. Su monitorinqlərindən sonra analizlərin cavabı bu sahə ilə məşğul olan beynəlxalq təşkilatlara göndəriləcəkdir. İşğalçı ölkədən keçməklə muxtar respublika ərazisində axan çaylarda çirklənmə qeydə alındıqda isə dərhal beynəlxalq təşkilatlar məlumatlandırılacaqdır. Ölkə əhəmiyyətli Su Monitorinq Laboratoriyası dünyada yerləşən su monitorinqi laboratoriyalarının xəritəsinə daxil edilmişdir. Laboratoriyanın Ermənistanla sərhəd yaşayış məntəqəsi olan Sədərək rayonunda yerləşməsi həm də müşahidə olunacaq problemlərə vaxtında müdaxilə etməyə imkan verəcəkdir. Ona görə də işə məsuliyyətlə yanaşılmalı, analizlər dəqiq aparılmalı, nəticələrə uyğun olaraq müvafiq tədbirlər görülməlidir.

Ali Məclisin Sədri laboratoriyada monitorinqlərin vaxtında və düzgün aparılacağına əminliyini bildirmiş, əməkdaşlara uğurlar arzulamışdır.



Sonra açılışı bildirən lent kəsilmişdir. Bildirilmişdir ki, binada analiz və nümunələrin hazırlanması otaqları istifadəyə verilmişdir. Yeraltı və yerüstü suların müxtəlif təyinatlar üzrə analizlərinin aparılması üçün laboratoriya müasir avadanlıqlarla təchiz edilmişdir. Laboratoriyada suyun radioaktiv çirklənməsini, suda olan ağır metalları, suyun codluğunu, duzluluğunu, elektrik keçiriciliyini, tərkibində turşuların və qələvilərin miqdarını, suda həll olmuş oksigeni təyin etmək mümkündür. Həmçinin laboratoriyada atom elektrik stansiyalarında istifadə olunan radioaktiv elementlərin nüvə parçalanmasından əmələ gələn tritium izotopunu təyin edən "TRİ CARB" cihazı quraşdırılmışdır. Yaradılan şərait muxtar respublikada su mühitinin yüksək keyfiyyətlə və dəqiqliklə öyrənilməsinə imkan verəcəkdir.

Laboratoriya avtomobillə təchiz olunmuş, binanın həyətində geniş abadlıq işləri aparılmış, yaşıllıq salınmışdır.

Ali Məclisin Sədri Su Monitorinq Laboratoriyasının imkanlarından səmərəli istifadə olunması, mütəxəssis hazırlığının diqqətdə saxlanılması, Səhiyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyət göstərilməsi, ayda bir dəfə monitorinq nəticələri barədə məlumatların hazırlanması və mətbuata verilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Sədərək Gömrük İdarəsi üçün müasir kompleks qurulur



Naxçıvan Muxtar Respublikasında gömrük infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Sədərək Gömrük İdarəsi üçün yeni kompleks inşa olunur.

İyulun 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kompleksin inşası ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 18 hektar ərazidə inşa olunan kompleks yük xətti və anbarlardan, sərnişinlərin keçid zallarının da yerləşdiyi inzibati binadan, yoxlama-baxış sistemləri bölməsindən və sürətli keçidin təmin olunması üçün nəzərdə tutulan VİP və CİP zallarından ibarət olacaqdır. Kompleksdə əsas tikinti işləri başa çatdırılıb. Gömrük nəzarəti və rəsmiləşdirilməsinin texnoloji sxeminə uyğun olaraq giriş-çıxış zolaqları bir-birindən ayrı nəzərdə tutulub. Üç zolaqla avtobus və minik nəqliyyat vasitələri, iki zolaqla yük nəqliyyat vasitələri hərəkət edəcəkdir. Bir zolaq isə sürətli keçid üçün istifadə olunacaqdır.

Sərnişin keçid zalında gömrük əməliyyatları və sərhəd nəzarətinin həyata keçirilməsi üçün xidməti otaqlar, eləcə də yerli məhsullar satılan "DUTY FREE" və kafe yerləşəcəkdir. Avtonəqliyyat vasitələrinin və sərnişinlərin keçidi üçün nəzərdə tutulan binanın ikinci və üçüncü mərtəbələrində xidməti otaqlar yaradılıb. Hazırda inzibati binada və keçid xətlərində son tamamlama işləri həyata keçirilir. Gələcəkdə kompleksdə sərnişin və yük qatarlarının gömrük nəzarətindən keçməsi üçün də lazımi şərait yaradılacaq, kinoloji xidmət fəaliyyət göstərəcəkdir.



Yeni gömrük kompleksinin istifadəyə verilməsi gömrük nəzarəti və rəsmiləşdirilməsinin müasir tələblər səviyyəsində həyata keçirilməsinə imkan verəcəkdir. Bu da iqtisadi-ticarət əlaqələrini genişləndirməklə yanaşı, həm də muxtar respublikanın əlverişli tranzit imkanlarından və turizm potensialından səmərəli istifadəyə şərait yaradacaqdır.

Ali Məclisin Sədri kompleksin gömrük xidmətinin tələblərinə uyğun qurulması və işıqlandırılması, keyfiyyətə ciddi diqqət yetirilməsi, təcili tibbi yardım və yanğından mühafizə xidmətlərinin təşkil olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Ukrayna Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri: "Naxçıvanda turizmin inkişafı üçün mövcud olan təbii şərait məni çox heyrətləndirdi"

Ukrayna Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski muxtar respublikamıza səfəri çərçivəsində əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib, Heydər Əliyev Muzeyində olub.

Diplomat səfər çərçivəsində muxtar respublikanın istehsal potensialı və səhiyyə turizmi ilə də yaxından maraqlanıb, tarixi-mədəni abidələrini ziyarət edib.

Ukrayna Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski "Şərq qapısı" qəzetinə müsahibəsində səfərinin məqsədi barədə danışıb, Naxçıvanla bağlı təəssüratlarını bölüşüb:

– İlk olaraq onu deyim ki, Naxçıvana ilk səfərim bu qədim diyar barədə yaddaşımda dərin təəssüratlar yaratdı. Keçirdiyim görüşlər zamanı aydın oldu ki, Naxçıvan Muxtar Respublikası ilə iqtisadiyyat, turizm, mədəniyyət sahələri üzrə geniş əməkdaşlıq etmək üçün böyük potensial imkanlar mövcuddur. Təbii ki, Naxçıvana konkret təkliflərlə gəlmişəm. Bunlardan ən vacibi Ukrayna Respublikasının perspektivli bir əyaləti ilə Naxçıvan Muxtar Respublikası arasında regionlararası əməkdaşlıq əlaqələri qurmaqdır.



Qısa zaman ərzində gəzib gördüyüm yerlərdə qarşılaşdığım şərait, yaradılan imkanlar gələcək əməkdaşlığımızın daha da perspektivli olacağını deməyə əsas verir. İlkin mərhələdə rəsmi əlaqələri gücləndirib, sonra isə konkret layihələri reallaşdırmağı nəzərdə tuturuq. Naxçıvanla tanış olmağımız üçün bizə yaradılan gözəl şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz dərin minnətdarlığımı bildirirəm.

Səfir vurğulayıb ki, Naxçıvanda turizmin inkişafı üçün mövcud olan təbii şərait onu çox heyrətləndirib: "Duzdağ Fizioterapiya Mərkəzi bənzərsiz görünüşə malikdir, bu günədək belə mağaralar görsəm də, Naxçıvandakının tam fərqli xüsusiyyətləri, müasir şəraiti vardır. Gələcəkdə Naxçıvana gəlməyi və həmin səhiyyə ocağında müalicə almağı da düşünürəm. Gördüklərim belə deməyə əsas verir ki, burada dini, səhiyyə və ekoturizm inkişaf edib və təbii ki, bütün bunlar turistlər üçün ən arzuolunan məqamlardır. Naxçıvanda insan özünü həm xoşbəxt, həm də sağlam hiss edir. Bütün bunlar Naxçıvanın unikal bir diyar olduğunu göstərir. Mən də öz növbəmdə çalışacağam ki, bütün bu müsbət keyfiyyətləri Vətənimdə olan insanlara aşılayım və onlar da buraya üz tutaraq bu imkanlardan istifadə edə bilsinlər".

**✍ Nail ƏSGƏROV**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 3 iyul-5 avqust 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında (*www.dqmk.nmr.az*) "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat 9[00]-dan 12[30]-dək və 14[00]-dan 17[30]-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər. Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər komissiyaya gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dqmk@nakhchivan.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|
| **1. Naxçıvan Musiqi Kolleci üzrə:** | | | | |
| 680111 | Aşıq sənəti | 1 | 393 | |
| 680113 | Bədii yaradıcılıq işi | 2 | 1377 | |
| 680117 | Xalq çalğı alətləri (kamança) | 6 | 4260 | |
| 680118 | Xalq çalğı alətləri (nağara) | 3 | 2100 | |
| 680119 | Xalq çalğı alətləri (qanun) | 3 | 1728 | |
| 680120 | Xalq çalğı alətləri (qarmon) | 2 | 1464 | |
| 680128 | İnstrumental ifaçılıq (fortepiano) | 3 | 2440 | |
| 680130 | İnstrumental ifaçılıq (skripka) | 2 | 1200 | |
| 680135 | Konsertmeyster (fortepiano) | 3 | 2034 | |
| **Cəmi:** | | **25 yer** | | |
| **2. Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **2.1. Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681136 | Qanun | 1 | 8 | |
| **2.2. Naxçıvan Şəhər Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681314 | Fleyta | 1 | 6 | |
| 681315 | Fortepiano | 1 | 12 | |
| 681337 | Qarmon | 1 | 21 | |
| 681344 | Skripka | 2 | 26 | |
| **2.3. Naxçıvan Şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681436 | Qanun | 2 | 22 | |
| 681443 | Saz | 1 | 20 | |
| **2.4. Naxçıvan Şəhər 5 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681640 | Nağara | 1 | 18 | |
| **2.5. Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi** | | | | |
| 681214 | Fleyta | 1 | 6 | |
| 681225 | Xoreoqrafiya | 2 | 34 | |
| 681234 | Klarnet | 1 | 4 | |
| 681236 | Qanun | 2 | 40 | |
| 681237 | Qarmon | 1 | 18 | |
| 681243 | Saz | 1 | 10 | |
| 681244 | Skripka | 2 | 30 | |
| 681245 | Tar | 1 | 12 | |
| 681248 | Violonçel | 1 | 6 | |
| 681249 | Vokal | 1 | 8 | |
| **2.6. Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi** | | | | |
| 681537 | Qarmon | 1 | 24 | |
| **Cəmi:** | | **24 yer** | | |
| **3. Şərur Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **3.1. Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbi** | | | | |
| 682112 | Balaban | 1 | 20 | |
| 682115 | Fortepiano | 3 | 50 | |
| 682122 | Xanəndəlik | 1 | 10 | |
| 682125 | Xoreoqrafiya | 2 | 36 | |
| 682132 | Kamança | 4 | 84 | |
| 682134 | Klarnet | 1 | 6 | |
| 682135 | Konsertmeyster (fortepiano) | 1 | 20 | |
| 682136 | Qanun | 1 | 16 | |
| 682137 | Qarmon | 1 | 24 | |
| 682138 | Musiqi ədəbiyyatı | 1 | 12 | |
| 682140 | Nağara | 2 | 32 | |
| 682141 | Rəsm | 1 | 12 | |
| 682143 | Saz | 2 | 28 | |
| 682145 | Solfecio | 1 | 15 | |
| 682146 | Tar | 4 | 80 | |
| **3.2. Aralıq Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682423 | Xor | 1 | 12 | |
| 682432 | Kamança | 1 | 20 | |
| 682435 | Konsertmeyster (fortepiano) | 2 | 36 | |
| 682437 | Qarmon | 1 | 24 | |
| 682440 | Nağara | 2 | 30 | |
| 682446 | Tar | 1 | 24 | |
| **3.3. Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682212 | Balaban | 1 | 12 | |
| 682215 | Fortepiano | 4 | 92 | |
| 682222 | Xanəndəlik | 1 | 12 | |
| 682223 | Xor | 1 | 21 | |
| 682232 | Kamança | 3 | 52 | |
| 682235 | Konsertmeyster (fortepiano) | 4 | 93 | |
| 682236 | Qanun | 2 | 36 | |
| 682237 | Qarmon | 2 | 45 | |
| 682238 | Musiqi ədəbiyyatı | 2 | 34 | |
| 682240 | Nağara | 3 | 32 | |
| 682243 | Saz | 1 | 4 | |
| 682245 | Solfecio | 2 | 32 | |
| 682246 | Tar | 3 | 52 | |
| 682247 | Truba | 2 | 36 | |
| **3.4. Ələkli Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682332 | Kamança | 2 | 36 | |
| 682335 | Konsertmeyster (fortepiano) | 3 | 64 | |
| 682337 | Qarmon | 3 | 54 | |
| 682338 | Musiqi ədəbiyyatı | 1 | 10 | |
| 682343 | Saz | 1 | 10 | |
| 682346 | Tar | 2 | 32 | |
| **3.5. Şəhriyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682615 | Fortepiano | 3 | 58 | |
| 682632 | Kamança | 2 | 28 | |
| 682635 | Konsertmeyster (fortepiano) | 3 | 62 | |
| 682640 | Nağara | 2 | 38 | |
| 682646 | Tar | 1 | 20 | |
| **3.6. Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682512 | Balaban | 2 | 36 | |
| 682515 | Fortepiano | 1 | 20 | |
| 682532 | Kamança | 2 | 48 | |
| 682535 | Konsertmeyster (fortepiano) | 5 | 110 | |
| 682537 | Qarmon | 2 | 24 | |
| 682538 | Musiqi ədəbiyyatı | 1 | 15 | |
| 682540 | Nağara | 1 | 24 | |
| 682546 | Tar | 4 | 88 | |
| **Cəmi:** | | **106 yer** | | |
| **4. Babək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **4.1. Babək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 683112 | Balaban | 1 | 4 | |
| 683115 | Fortepiano | 2 | 30 | |
| 683122 | Xanəndəlik | 1 | 10 | |
| 683135 | Konsertmeyster (fortepiano) | 2 | 18 | |
| 683137 | Qarmon | 2 | 24 | |
| 683140 | Nağara | 1 | 8 | |
| 683146 | Tar | 1 | 12 | |
| **4.2. Cəhri Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683322 | Xanəndəlik | 1 | 12 | |
| 683335 | Konsertmeyster (fortepiano) | 2 | 29 | |
| **4.3. Nehrəm Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683215 | Fortepiano | 2 | 32 | |
| 683222 | Xanəndəlik | 1 | 4 | |
| 683232 | Kamança | 3 | 40 | |
| 683240 | Nağara | 1 | 18 | |
| 683246 | Tar | 1 | 12 | |
| **4.4. Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683437 | Qarmon | 1 | 15 | |
| 683440 | Nağara | 1 | 4 | |
| 683443 | Saz | 1 | 16 | |
| 683446 | Tar | 1 | 8 | |
| **4.5. Zeynəddin Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683536 | Qanun | 1 | 16 | |
| 683537 | Qarmon | 1 | 15 | |
| 683540 | Nağara | 1 | 8 | |
| **Cəmi:** | | **28 yer** | | |
| **5. Ordubad Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **5.1. Ordubad Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 684115 | Fortepiano | 1 | 20 | |
| 684123 | Xor | 1 | 19 | |
| 684134 | Klarnet | 1 | 8 | |
| 684135 | Konsertmeyster (fortepiano) | 2 | 79 | |
| 684137 | Qarmon | 1 | 24 | |
| 684138 | Musiqi ədəbiyyatı | 2 | 36 | |
| 684146 | Tar | 1 | 13 | |
| 684149 | Vokal | 1 | 6 | |
| **5.2. Vənənd Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 684215 | Fortepiano | 2 | 46 | |
| 684223 | Xor | 1 | 9 | |
| 684234 | Klarnet | 1 | 14 | |
| 684235 | Konsertmeyster (fortepiano) | 3 | 12 | |
| 684237 | Qarmon | 1 | 12 | |
| 684238 | Musiqi ədəbiyyatı | 1 | 24 | |
| 684240 | Nağara | 1 | 14 | |
| 684246 | Tar | 3 | 44 | |
| **Cəmi:** | | **23 yer** | | |
| **6. Culfa Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **6.1. Culfa Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 685112 | Balaban | 1 | 4 | |
| 685132 | Kamança | 1 | 8 | |
| 685135 | Konsertmeyster (fortepiano) | 1 | 12 | |
| 685137 | Qarmon | 4 | 54 | |
| 685140 | Nağara | 1 | 8 | |
| 685146 | Tar | 1 | 8 | |
| **6.2. Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 685215 | Fortepiano | 3 | 42 | |
| 685222 | Xanəndəlik | 1 | 14 | |
| 685232 | Kamança | 3 | 46 | |
| 685235 | Konsertmeyster (fortepiano) | 2 | 26 | |
| 685240 | Nağara | 2 | 32 | |
| 685244 | Skripka | 1 | 18 | |
| 685246 | Tar | 3 | 40 | |
| **Cəmi:** | | **24 yer** | | |
| **7. Kəngərli Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **7.1. Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 686123 | Xor | 1 | 20 | |
| 686132 | Kamança | 1 | 8 | |
| 686135 | Konsertmeyster (fortepiano) | 3 | 46 | |
| 686144 | Skripka | 1 | 14 | |
| 686146 | Tar | 1 | 12 | |
| 686147 | Truba | 2 | 24 | |
| **7.2. Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 686215 | Fortepiano | 2 | 24 | |
| 686235 | Konsertmeyster (fortepiano) | 5 | 63 | |
| 686237 | Qarmon | 2 | 27 | |
| 686238 | Musiqi ədəbiyyatı | 1 | 20 | |
| 686240 | Nağara | 2 | 26 | |
| 686243 | Saz | 2 | 28 | |
| 686246 | Tar | 1 | 8 | |
| **Cəmi:** | | **24 yer** | | |
| **8. Şahbuz Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **8.1. Şahbuz Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 687112 | Balaban | 1 | 8 | |
| 687115 | Fortepiano | 1 | 24 | |
| 687132 | Kamança | 1 | 12 | |
| 687135 | Konsertmeyster (fortepiano) | 3 | 49 | |
| 687140 | Nağara | 1 | 8 | |
| 687143 | Saz | 2 | 36 | |
| 687146 | Tar | 1 | 8 | |
| **8.2. Kolanı Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 687212 | Balaban | 1 | 6 | |
| 687223 | Xor | 1 | 15 | |
| 687232 | Kamança | 1 | 8 | |
| 687235 | Konsertmeyster (fortepiano) | 1 | 12 | |
| 687244 | Skripka | 1 | 12 | |
| **Cəmi:** | | **15 yer** | | |
| **9. Sədərək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **9.1. Sədərək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 688112 | Balaban | 1 | 24 | |
| 688115 | Fortepiano | 1 | 14 | |
| 688132 | Kamança | 3 | 56 | |
| 688134 | Klarnet | 1 | 18 | |
| 688135 | Konsertmeyster (fortepiano) | 4 | 92 | |
| 688137 | Qarmon | 1 | 18 | |
| 688138 | Musiqi ədəbiyyatı | 1 | 18 | |
| 688143 | Saz | 1 | 14 | |
| 688146 | Tar | 2 | 32 | |
| 688149 | Vokal | 1 | 10 | |
| **Cəmi:** | | **16 yer** | | |
| **Yekun:** | | **285 yer** | | |


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 441